2017-ci ilin yanvar-fevral aylarında muxtar respublikada nəqliyyat müəssisələri və avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən fiziki şəxslər tərəfindən 1753,3 min ton yük, 13009,6 min nəfər sərnişin daşınmışdır. 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 1,7 faiz, sərnişin daşınması 2 faiz artmışdır. Yük və sərnişin daşınmasından bütövlükdə 7334,3 min manat gəlir əldə edilmişdir ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 3,8 faiz çoxdur.

Qeyri-dövlət sektorunda 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 1,6 faiz, sərnişin daşınması 1,3 faiz, yük və sərnişin daşınmasından əldə olunan gəlir isə 1 faiz artmışdır.